# NAXÇIVANA XOŞ GƏLMİSİNİZ!

# WELCOME TO NAKHCHIVAN!

**NAXÇIVAN**
**2005**

# Naxçıvana xoş gəlmisiniz!

Sizi Naxçıvan Muxtar Respublikasında səmimi qəlbdən salamlayırıq. Bu qədim diyara xoş gəlmisiniz!




5-6 min il bundan əvvəl bura qədim insanın ilk yaşayış məskənlərindən biri olub. Əfsanəyə görə Nuhun gəmisi burada dayanıb. 3500 ildən çox yaşı olan Naxçıvan şəhəri dünyanın ən qədim şəhərlərindən biridir. Bu qədim diyarda tarixi hadisələr çox olub...

Naxçıvan Muxtar Respublikası 1920-23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923-1924-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924-1990-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respublikasıdır - Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir. Şimalda və Şərqdə Ermənistan Respublikası (sərhəd xəttinin uzunluğu 246 km), qərbdə və cənubda Türkiyə (11 km) və İran İslam Respublikası (204 km) ilə həmsərhəddir. Paytaxtı Naxçıvan şəhəridir.

Muxtar Respublika ərazisinin sahəsi 5.5 min $km^2$ , əhalisi 380 min nəfərə yaxındır. Hazırda 7 inzibati rayona (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli) bölünmüşdür.

Naxçıvan Muxtar Respublikası Kiçik Qafqazın cənub-qərbində yerləşir. Dəniz səviyyəsindən orta yüksəkliyi 1450 m-dir. Ərazinin üçdə iki hissəsinin hündürlüyü 1000 m-dən yuxarı olan dağlıq sahələrdir. Ərazinin üçdə bir hissəsini isə bir-birindən dağ qolları və tirələrilə ayrılan maili Arazboyu düzənliklər (Sədərək, Şərur, Böyükdüz, Naxçıvan, Culfa, Yaycı, Kəngərli, Dəstə, Ordubad və s.) tutur.

Hündür zirvələri: Yağlıdərə - 3827 m, Qazangöldağ - 3814 m, Sarıdərə - 3754 m, Dəvəboyu - 3560 və s.

Faydalı qazıntı sahələrində (Duzdağ, Darıdağ, Şəkərdərə, Gömür, Quyuludağ, Qızılqaya və s.) mağaraların, quyuların aşkar olunması, ibtidai əmək alətlərinin tapılması Naxçıvan ərazisində hələ qədim vaxtlardan duz, mərgümüş, mis, qızıl, kükürd və s. çıxarıldığını göstərir: orta əsrlərdə Azərbaycanda elmi-təsviri mineralogiya traktatları - "Cavahirnamə" yaranmışdır. Ərazidə ilk geoloji tədqiqatlar və mineral sərvətlərin öyrənilməsi XVIII əsrin 2-ci yarsından başlanmış, planauyğun surətdə müntəzəm öyrənilməsi isə Naxçıvan Muxtar Respublikası yarandıqdan sonrakı dövrə aiddir. Naxçıvan orta əsrlərdə Azərbaycanın əsas ticarət mərkəzlərindən biri olmuş, Yaxın Şərq və Qafqazla iqtisadi, mədəni əlaqələrin daha da güclənməsində önəmli rol oynamışdır.



Mineral su bulaqlarının rəngarəngliyinə görə Naxçıvan Muxtar Respublikası dünyanın ən diqqətəlayiq bölgələrindəndir. Muxtar Respublikanın 5.5 min $km^2$-lik sahəsində 250-dən artıq mineral su mənbəyi qeydə alınmışdır (Sirab, Badamlı, Vayxır, Gülüstan, və s.)

Naxçıvan ərazisində ümumi uzunluğu 1.8 min km olan təqribən 400 böyük və kiçik çay var.

Bunlardan 334-nün uzunluğu 5 km-ədək, 31-ninki 6-10 km, 24-nünkü 11-25 km, 7-ninki 26-50 km, 3-nünkü (Naxçıvançay, Əlincəçay, Gilanşay) 51-100 km, 1-ninki (Şərqi Arpaçay) isə 100 km-dən artıqdır.

Muxtar Respublikanın florası Azərbaycanın digər botaniki-coğrafi rayonlarına nisbətən zəngindir. Ərazi cəhətdən çox da geniş olmayan bu regionda ali bitkilərin 2963 növünə rast gəlinir, onlar da 880 cins və 168 fəsilədə cəmləşmişdir.



Muxtar Respublikanın çay və göllərində sümüklü balıqlar sinifinə daxil olan 29 növ balıq vardır.

Azərbaycan Respublikasında qeydə alınmış 366 növ quşun yarıdan çoxuna (226 növ) Naxçıvan ərazisində rast gəlinir.

Muxtar Respublikanın ərazisi təbii şəraitinə görə Azərbaycanın digər bölgələrindən kəskin surətdə fərqlənir və bu, bölgənin heyvanlar aləminin son dərəcə zənginliyində öz əksini tapır. Burada olan heyvanların növ tərkibi və miqdarı Azərbaycan

faunasının 60-80% -ni təşkil edir.

Naxçıvan Muxtar Respublikası inkişafda olan çoxsahəli sənaye və aqrar-sənaye respublikasıdır. Sənayedə yerli kənd təsərrüfatı məhsullarının emalı və faydalı qazıntı hasilatı xüsusi yer tutur. Elektronika, metal emalı, yüngül, tikinti materialları sənayesi var. Kənd təsərrüfatı əsasən, üzümçülük, tütünçülük və bağçılıq sahəsində ixtisaslaşmışdır. Taxılçılıq və heyvandarlıq inkişaf etmişdir.



Muxtar Respublikada iqtisadi islahatlar ardıcıl həyata keçirilmiş, torpaq islahatı başa çatdırılmış, azad sahibkarlığın, xüsusi mülkiyyətin və kiçik biznesin inkişafı üçün geniş imkanlar yaradılmışdır.

Muxtar Respublikada aparılmış elmi ixtisaslaşma və ictimai əmək bölgüsü sayəsində emal və hasilat sənayesi formalaşmışdır. Naxçıvan Muxtar Respublikasının xarici ölkələrə; xüsusi ilə İran və Türkiyə respublikaları, MDB ölkələri ilə ticarət-iqtisadi əlaqələri genişlənmişdir.

Regionun sənayesi yerli xammala əsaslanır və yüngül və yeyinti sənayesi müəssisələri əksəriyyət təşkil edir. Üzümçülüyün inkişafı, eyni zamanda, şərabçılığın inkişafına şərait yaratmışdır. Badamlı-Vayxır-Naxçıvan mineral su kəmərinin çəkilməsi Naxçıvan Muxtar Respublikasında mineral su istehsalını artırmışdır. Keyfiyyətinə və müalicə əhəmiyyətinə görə dünyada tanınan bu mineral sular Badamlı, Sirab, Vayxır, Darıdağ, Nəhəcir mineral su zavodlarında qablaşdırılır və ölkənin tələbatını ödəməklə yanaşı, yaxın-uzaq xaricə də ixrac edilir. Naxçıvan Muxtar Respublikasında ət, süd kombinatları, çörək zavodları və digər müəssisələr fəaliyyət göstərir.

Zəngin və çoxsaylı tikinti materiallarına malik muxtar respublikanın ərazisi, burada tikinti materialları, dəmir-beton, kərpic, travertin, mərmər və s. sənaye müəssisələrinin yaradılmasına və nadir tikinti məhsullarının dünya bazarına çıxarılmasına imkan vermişdir. Burada aparılan tikinti-quraşdırma və tikinti-təmir işləri yalnız muxtar respublikanın daxili imkanları hesabına təmin olunur.



Muxtar Respublika iqtisadiyyatının əsasını çoxsahəli kənd təsərrüfatı təşkil edir. Kənd təsərrüfatı bitkilərinin əkin sahəsinin yarıdan çoxunda buğda əkilir. Son illərdə şəkər çuğunduru əkininə diqqət artmışdır.

Muxtar Respublikanın düzənlik

yerlərində, əsasən, ətlik-südlük və yunluq, dağlıq yerlərində ətlik-yunluq heyvandarlıqla məşğul olunur. Balbas cinsli qoyunlar yetişdirilir. Muxtar Respublikada quşçuluq, baramaçılıq və arıçılıqla da məşğul olunur.



Naxçıvan Muxtar Respublikası ərazisində Şahbuz Dövlət Təbiət Qoruğuna daxil olan təbiətin ən gözəl məkanlarından biri, Batabat yaylağı yerləşir. Bura Kiçik Qafqaz dağlarında yaylaq yeridir. Batabat rəsədxanası da buradadır.

Rəsədxana dəniz səviyyəsindən 2050 m hündürlükdə yerləşir. Dünya rəsədxanaları arasında şəffaf səması, günəşli günlərinin sayının çoxluğu ilə tanınır. Coğrafi en dairəsinin nisbətən kiçik olması Günəşin cənub səmasının bir çox başqa rəsədxanalardan görünməyən hissəsini müşahidə etməyə imkan verir. Batabatda 60 sm-lik ulduz teleskopu, Günəş koronoqrafı, 20 sm-lik teleskop fəaliyyət göstərir.



Batabatda nadir tərkibə malik bulaqlar mövcuddur. Bu bulaqlar Naxçıvan şəhərindən 65 km məsafədə, dəniz səviyyəsindən 2445 m yüksəklikdə yerləşir. Buradakı göllərin ümumi su tutumu 3

milyon kub. metrdir. Hər üç gölün özünə məxsus hidrofaunası var. Ərazi həm də dərman bitkiləri ilə, müxtəlif quşlar və heyvanlarla zəngindir.

Akademik Həsən Əliyev adına Ordubad milli Parkı da Naxçıvan Muxtar Respublikasında xüsusi mühafizə olunan təbiət ərazisidir. Park Azərbaycan Respublikası ərazisində yaradılmış ilk milli parklardandır.

Kiçik Qafqazın Azərbaycan Respublikası ərazisində ən yüksək zirvəsi olan Gəmiqaya (3906 m) Ordubad Milli Parkının ərazisində yerləşir. Həmin ərazilərdə 77 növ ali və nadir bitki, 32 növ heyvan mövcuddur. Burada Qafqaz bezoar keçisi, Zaqafqaziya dağ qoyunu (mulfon), bəbir, çöl pişiyi, vaşaq, Zaqafqaziya qonur ayısı və s. yaşayır.

Azərbaycan Respublikasının "Qırmızı Kitabı"na düşmüş Qızılxallı balıq əsasən Milli Parkın ərazisində yerləşən Əyriçay və Parağaçayda geniş yayılmışdır.

Naxçıvana tez-tez gəlin!
Yolunuzu həmişə gözləyirik!

# Welcome to Nakhchivan!

...We greet you in the Nakhchivan Autonomous Republic quite sincerely. Welcome to this ancient land.

5-6 thousand years ago this was one of the first dwellings of primitives. According to the legend Nuh's ship stopped here. Being 3500 years old the Nakhchivan city is one of the oldest cities in the world. Many historicalm events took place in this ancient land...

The Nakhchivan Autonomous Republic was the Nakhchivan Soviet Socialist Republic in 1920-1923, the Nakhchivan Autonomous Land in 1923-1924, the Nakhchivan Autonomous Soviet Socialist Republic in 1924-1990, since 1990 it is the Nakhchivan Autonomous Republic - Autonomous Country inside the Azerbaijan Republic. It borders on the Armenia Republic in the North and East (the length of the border is 246 km), the Turkey Republic (11 km) and the Iran Islam Republic (204 km) in the West and South. The capital is the Nakhchivan city.

The Autonomous Republic's territory is 5,5 thousand sq.km., its population is about 400000. At the present moment it is divided into 7 administrative regions (Babek, Julfa, Ordubad, Sederek, Shahbuz, Sharur, Kangarli).

The Nakhchivan Autonomous Republic is situated in the South-West of the Lesser Caucasus. Its heigh is on average 1450 km above sea-level. Two third part of the territory is more than 1000 m heigh mountainous areas. But one third part is sloping plains along the Araz (Sederek, Sharur, Boyukduz, Nakhchivan, Julfa, Yayji, Kangarli, Dasta, Ordubad, etc..)

The highest tops are Yaglidere (3827m), Gazangoldag (3814m), Saridere (3754m), Deveboyu (3560m), etc...

In the fields of mineral products (Duzdag, Daridag, Shekerdere, Gomur, Guyuludag, Gizilgaya, etc..) Discovery of caves, wells and primitives proves that salt, arsenic, copper, gold, sulphur are being extracted from the ancient times in the territory of Nakhchivan: in the Middle Ages scientific-descriptive mineralogy treaties - "Javahirname" appeared in Azerbaijan. Primary geological investigations and researching mineral resources began in the II half of the XVIII century, its regular researching according to the plan concern the period after the Nakhchivan Autonomous Republic's establishment. Nakhchivan was one of the main trade center gaining strength of economical, cultural relations with the Near East and the Caucasus.

According to the difference of the springs the Nakhchivan Autonomous Republic is one of the remarkable regions of the world. In the 5,5 thousand sq.km territory of the Autonomous Republic more than 250 mineral water sources were registered (Sirab, Badamli, Vaykhir, Gulustan, etc..)

There are about 400 small and large rivers in the territory of Nakhchivan, their general length are nearly 1,8 thousand km. 334 of them are 5 km, 31 of them 6-10 km, 24 of them 11-25 km, 7 of them 26-50 km, 3 of them (Nakhchivanchay, Alinjachay, Gilanchay) 51-100 km, one of them (Eastern Arpachay) is more than 100 km.

The flora of the Autonomous Republic is richer than the other botanical-geographical regions of Azerbaijan. Its territory is not so large but in this region we come across 2963 speices of superiores plants, they assemble in 880 generics and 168 families.

There are 29 species of fish which concern bony fish classes in the rivers and lakes of the Autonomous Republic.

We can come across the registered 366 species of birds' 226 species (more than half) in the territory of Nakhchivan.

The Autonomous Republic's territory differ from the other regions of Azerbaijan distinctly according to its natural condition and fertility of the fauna of this region reflects itself vivid extremely. The specie content and number of the animals here form 60-80% of the Azerbaijan fauna.

The Nakhchivan Autonomous Republic is a developing varied industry and agrarian-industry republic. Agriculture products' treatment and mineral products' output have a special place in the industry. There are electronic, metal-working, light, building materials industries here. The agriculture is specialized mainly in vine-growing, tobacco-growing and gardening. Grain-growing and cattle-breeding developed here.

Economical reform was carried out consistently, land reform was perfected, a great opportunity was given for the development of free ownership, private property and small business in the Autonomous Republic.

As a result of scientific specialization and division of social labor policy treatment and output industry formed in the Autonomous Republic. The Nakhchivan Autonomous Republic's trade-economical relations with foreign countries, especially with the Iran and Turkey Republics, and with the OIS countries trade-economical relation are developing.

The region is based on local raw material and mainly light and food industry enterprises work here. Development of vine-growing gave a chance for development of vine-making at the same time. Drawing of the Badamli-Vaykhir-Nakhchivan mineral water line reduced the production of mineral water in the Nakhchivan Autonomous Republic. According to its quality and treatment significance these world-wide waters Badamli, Sirab, Vaykhir, Daridag, Nahajir are done up in the mineral water plants and besides meeting the country's needs they are exported to the near or far abroad.

Meat and milk packing plants, mechanical bakeries and other enterprises work in the Nakhchivan Autonomous Republic.

The Autonomous Republic's territory has fertile and a number of building materials, so it makes a chance to construct here building materials, iron-concrete, brick, travertine, marble, etc... enterprises and to export rare building products to the world trade fair. The building-construction and building-repair works carried out here are provided on account of the Autonomous Republic's internal financial basis.

Mixed framing agriculture is the basis of the Autonomous Republic's economy. More than half of the agricultural plants in the sowing area wheat is grown. Lately, attention raised to the growing of sugar-beet.

They are busy mainly with cattle for slaughter, milk and wool in plains, but in the mountainous places of the Autonomous Republic they are busy with cattle for slaughter. The specie sheep balbas is bred. They are busy with poultry, sericulture and apiculture in the Autonomous Republic.

In the territory of the Nakhchivan Autonomous Republic one of the best places Batabat pasture is situated, it concerns the State Nature Reserve in Shahbuz. It is more pasture place than the Lesser Caucasus mountains.

The observatory Batabat is also here.

The observatory is situated in 2050 m heigh above sea-level. It is known among the world observatories with its clear sky and great number of sunny days. Geographical width circumference of the Sun is small in comparison, the south invisible space of the Sun from some other observatories can be observed here. 60 sm star telescope, Sun chronograph, 20 sm telescope are used in Batabat.

There are many rare structured springs in Batabat. These springs are 65 km distance from Nakhchivan and 2445 m above sea-level. Total water volume of the lakes here is 3 million cube meter. Each of the three lakes has its hydrofauna. The territory is rich in drug plants, different birds and animals.

Ordubad National Park named after Hasan Aliyev is a special reserved area of nature in the Nakhchivan Autonomous Republic. The park is one of the first National Parks in the territory of the Azerbaijan Republic.

Gamigaya (3906 m) - the highest peak of the Lesser Caucasus in the Azerbaijan Republic's territory is situated in the area of Ordubad National Park. There are 77 species of superiores and rare plants, 32 species of animals in the territory. Caucasus bezoar goats, Transcaucasian mountain sheep (mulfon), leopards, wild cats, lynxes, Transcaucasian grey bears and etc... live here.

Qizillkhalli fish included the "Red Book" of the Azerbaijan Republic mainly spread in National Park's area in Eyrichay and Paragachay.

Come to Nakhchivan frequently!
We are waiting for you!